

# Ömür Vətən üçündü

(esse)

## Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun xatirəsinə

*Qusarın Həzrə kəndində də, tələbəykən Bakıda da Vətəni ruhunun beşiyi bilirdin, Çingiz, Yusif kimi, Vəzir kimi, Mübariz kimi, Samid kimi, Elnur kimi,...*

Sən də Vətəni sevirdin. Vətənin arzuladığı kimi sevirdin. Bu müqəddəs sevgini kimsəyə hiss etdirmədən sevirdin. Sevə-sevə yaşayırdın, yaşaya-yaşaya sevirdin.

Əsgəriydin. Vətəni əsgər kimi sevirdin. Bilənlər bilirdi, görənlər görürdü. Bilməyənlər şəhidliyindən sonra bildi...

Mübariz İbrahimov şəhid olanda 14 yaşın vardı. Bu şəhidlik (həm də belə şəhidlik!) minlərlə həmyaşıdın kimi sənin də düşüncələrini titrətdi. Bu titrəyiş torpağa meyilli titrəyişiymiş; torpağı sevirdin - daha müqəddəsliklə sevdin, Vətəni duyğularınla sevirdin - duyğularının güvəndiyi ürəklə sevdin. Sevə-sevə inandın ki, ömür Vətən üçündü...

Yazı da sevirdin, payızı da. Yazda tumurcuq-tumurcuq gülümsünən ağaclara da heyranlıqla baxardın, payızda yarpaq-yarpaq saralan, saraldıqca kövrəkləşən budaqlara da. Könlün nə yazdan doyurdu, nə payızdan. Bir əlin yazın yaxasından yapışardı, bir əlin payızın...

Sən də aylarını il eləməkdəydin...

Texniki Universitetin məzunuydun. İşğal olunmuş torpaqlarımızın göylərində dolaşan buludlar sənin də könül mülkünü sıxırdı. Qəhərləndiyin hiss olunmazdı - özün hiss etdirməzdin, belə məqamlarda özünlə kəlmələşərdin. "Vətən!" - deyərdin, "Vətən!" - eşidərdin...

Müəllimlərin magistraturada təhsil almağını



məsləhət gördülər. "Yox" - dedin. "Əsgərliyə gedəcəm. Sonra oxuyaram". "Sonra"nın nə olduğunu kimsə bilmədi. Kimsə bilmədi ki, "sonra" kəlməsi "qələbədən sonra" yozumluymuş. Qələbəni əsgər kimi yaşamaq niyyətilə əsgər oldun. Təmas xəttində. Düşmənlə üzbəüz mövqelərdə. Yusifləşə-Yusifləşə, Vəzirləşə-Vəzirləşə, Mübarizləşə-Mübarizləşə, Samidləşə-Samidləşə,... xidmət edirdin.

İşğal olunmuş torpaqlarımızın ağrıları səni dekabrın 29-na aparırmış. Həmin gün bir qəhrəmanlıq sıyrılacaqmış qınından. Həmin gün Azərbaycan əsgərinin qeyrəti, cəsarəti düşmənin gözünü qamaşdıracaqmış...

...Sayca çox, lap çox olan düşmənlərlə atışırdın... Dağıdılmış evlərimizə görə atışırdın, söndürülmüş ocaqlarımıza görə atışırdın, mərmilərlə, güllələrlə yaralanan torpaqlarımıza görə atışırdın, şəhidlərimizə görə atışırdın... Neçə düşmən ölümünü sənin güllələrindən tapdı...

Sənə oğlummu deyim, qardaşımmı deyim? - sən indi hamımızın Çingizisən. Sənsizlik ağrılarını biz də çəkirik. Sən həmin gün Mübarizləşdin, şəhid oldun, Çingizimiz...

Düşmən son nəfəsinəcən sənə yaxın düşə bilmədi... Düşmən nəşini 40 gün girov saxladı. Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli mövqeyi erməniliyi sındırdı; düşmən sənin nəşini qaytarmağa məcbur oldu...

Son mənzilə minlərin ehtiramıyla yola salındın. Dəfnində atan Salmanın dediyi kəlmələr məmləkəti bir mətləbə köklədi: Vətən qorunmalıdı: "... torpaqlarımızın işğaldan azad edilməsi üçün Ali Baş Komandanın əmrinə hazıram" - atan belə dedi. Sənin ömrünün yaşarılığının təsdiqidi. Sənin arzuladığın qələbə gününü tezləşdirmək üçün atan da döyüşənlərin sırasında olmağa hazırdı...

Zamanında Çingizlər Mübarizləşir...

Zamanında Çingizləşənlər də çox olacaq...

Səninlə şəhidliyin gününəcən görüşsəydik nələrdən danışardıq? - Vətəndən, torpaqdan, şəhidlikdən, şəhidlərdən. Bir də Qələbədən. Onda "Qələbəni əsgər olaraq yaşamaq istəyirəm!" - deyərdin, şübhəsiz...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə sənə Azərbaycanın Milli Qəhrəmanı adı verildi...

...Tələbə yoldaşlarınla kəlmələşəndə sözarası deyərdin: ömür Vətən üçündü...

Əsgər yoldaşlarına deyərdin: ömür Vətən üçündü...

Sənin dəfnində göz yaşları ürəyinə axan atan da belə dedi: ömür Vətən üçündü...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**